## A. Pifaqorçu kainat modeli. Filolay

Kroton`lu **Filolay/Philolaos**(t.“-470” – t.“-390”) Pifaqorçuların kainatın quruluşuna aid görüşləri haqqında məlumat vermişdi (deyilənə görə, Pifaqorçu görüşlər haqqında yazmağa ixtiyar verilən ilk Pifaqorçu Filolaos imiş). Onun “Təbiət haqqında” əsərindən kiçik fraqmentlər qalıb. Yer, Ay, Günəş, bütün planetlər və ulduzlar bir Mərkəzi Od, kosmosun canı, ürəyi (Hestia) ətrafında dövr edirlər. Üstəlik, bu, Əks-Yerə də aiddir (Əks-Yer Kosmosun əks tərəfində olduğu üçün görünmür). Günəş şəffaf kürədir, Mərkəzi Oddan düşən işığı və istiliyi əks etdirir, əks olunmuş işıq və istilik Yerə də düşür. Yerin yaşayış olmayan tərəfi mərkəzi oda tərəf baxdığı üçün insanlar mərkəzi odu görmürlər. Yəni yaşayış Yer`in bir tərəfindədir və biz ancaq onu görürük (Yerdən Ayın ancaq bir tərəfi göründüyü kimi). Pifaqorçuların Əks-Yer anlayışını daxil etmələrini Aristotel onların, mümkündür ki, səma cisimləri çevrələrinin sayını ona bərabər etmək cəhdi (5 məlum planet, Günəş, Ay, Yer, sabit ulduzlar kürəsi və Əks-Yer) kimi şərh edirdi (“Metafizika”). Əks-Yer Mərkəzi Odun (Yerdən) əks tərəfində olduğu üçün o, Yerdən görünmür. Yer Mərkəzi Od ətrafında bir gün ərzində tam dövr edir, gecə və gündüz bu səbəbdən baş verir.




Yuxarıda: gecə. Aşağıda : gündüz

Bu ədəd oyunu və ya mistikası Pifaqorçuları, belə görünür ki, Yerin mərkəz olmadığı kainat sisteminə meylləndirmişdi (və ya meylləndirən səbəblərdən biri

olmuşdu). Yəni Yer də gəzəyəndir (planetdir) və Kainatın mərkəzi deyil! Yerin kürə şəklində olmasını deyən ilk yunanın Pifaqor olduğu da şübhəlidir. Yerin öz oxu ətrafında fırlanması ideyasını qədim müəlliflər Pifaqorçulardan gah Sirakuzlu Hicetas`a ("-4"-cü əsr), gah Sirakuzlu Ecphantus`a ("-4"-cü əsr), gah da Filolay`a aid edirlər. Filolay musiqi nəzəriyyəsi ilə də məşğul olmuşdu (O, harmoniyanı sanki oktava ilə eyniləşdirirdi).

B. Elea metafizika və məntiq məktəbi

Elealı (İtaliyanın cənubu) Parmenides ("-6"-cə əsrin 2-ci yarısı, "-5"-ci əsrin 1-ci yarısı) deyilənə görə Ksenofones`in tələbəsi olub. Parmenidesin fraqmentləri qalmış (təqribən 160 misra) olan yazısı ("Təbiət haqqında") fəlsəfi şeir şəklindədir ; Parmenides onun ilahi bir vəhy olaraq əmələ gəldiyini iddia edir (Simplikios). Bir gənc (Parmenides!) iki "çox ağıllı at" qoşulmuş ikitəkərli arabada (karetada) Günəşin qızlarının müşayiəti ilə "qaranlıqdan işığa" doğru fantastık səyahət edir. O, bir ilahənin (şərhçilər onun ədalət ilahəsi Dike ola biləcəyini deyirlər) məbədinə gəlib çatır. İlahə onu yaxşı qəbul edir və nəsihət verməyə başlayır ("məni mehribanlıqla qəbul etdi, sağ əlimdən tutdu və danışdı"). Bu andan başlayaraq poema ilahənin dili ilə (sona qədər) davam edir. İlahə gəncə iki yol olduğunu deyir: "həqiqət/haqq yolu" və "rəy yolu". Həm müəyyən olan həqiqəti, həm də qeyri-müəyyən olan insan rəylərini bilmək lazımdır.  Hisslər aldadıcıdır, idraka əsaslanmaq zəruridir, ağıl ilə duyğu, doğru ilə zənn olunan arasında ciddi fərqlər var; həqiqət soyuqqanlıdır, insanların rəyi isə etibarlı deyil (Parmenides bu məsələdə Heraklitos`la həmfikir olmuş və daha irəli getmişdir; digər məsələlərdə isə əsasən Heraklites`dən tam ayrılır, onun tam əksinə gedir).

"Düşünülməsi mümkün olan varolması mümkün olanla eyni şeydir", yəni varlıq var olduğuna görə düşüncənin mövzusudur, düşüncə ilə dərk edilir. Parmenides "boşluq" anlayışını "heç nə" ilə eyni sayır. Buna görə varolmayan, yəni boşluq yoxdur (atomizmdə isə əksinə, hər şey boşluq və atomlardan ibarətdir).Və ya varlıqdan başqa heç nə yoxdur, varlıq hər yerdədir. Düşüncə də varlıqdır, çünki heç nə haqqında düşünmək mümkün deyil. Düşünmə və varoluş eyni şeydir. Yəni düşünülən hər şey var, bir ad çəkirsinizsə, bu nəyinsə, kiminsə adıdır və o şey və ya o kimsə var, həmişə var olub, indi var və var olacaq, dəyişmir. Sözün altında daim var olan, dəyişməyən  obyekt durur.

Təhlil edək: uçan əjdaha varmı?!.Parmenides`dən soruşsaq o, yəqin ki, "uşan əjdaha olub, var və olacaq-əgər biz bu sözü işlədiriksə..." deyərdi. Əslində isə həqiqət belədir: bəzi insanlar rəvayət edirlər ki, uçan əjdaha olub; bu rəvayətdir, rəvayət uydurma deyil, amma uçan əjdahanı heç kim görməyib. "Amma qartalın iki qanadı var" fikri rəvayət, söz, fikir kimi deyil, doğrusu qartala baxmaqla sübut oluna bilir (uçan əjdahadan fərqli olaraq). Tam desək: uçan əjdaha sözü var və ya var olan uçan əjdaha sözüdür. Eynilə M.F. Axundov haqqında xatirələr ola bilər, lakin onun adı həmin adamın özü deyil. Keçmişdəki insanla (obyektlə) onun haqqında söz, fikir, xatirə eyni şey deyillər. Olmayan şey haqqında da düşünmək mümkündür.

Varlığın keçmiş və gələcəyi yoxdur (dəyişməzdir, keçmiş tək keçmiş deyil, indidir, gələcəkdir), varlıq təmiz indidir (zaman fəlsəfəsi!), vahiddir, hərəkətsizdir, dəyişməz və tükənməzdir, kürə`yə bənzəyir (yəni bu vahid olan maddidir, Tanrı deyil?!). Varlıq yaranmayıb, yaransa varolmayandan yaranmalı idi. Var olan tək şeydir, bunu arxenin –təşkiledici təməl ünsürün bir olması kimi də şərh etmək mümkündür. Parmenides monistdir.

Parmenides hərəkət və dəyişmə məsələsində Heraklitos`un tam əksini - hərəkətin və hər hansı şəkildə dəyişmənin mövcud olmadığını irəli sürmüşdür. Boşluq olmadığı üçün hərəkət ola bilməz. Parmenides`ə görə hərəkət və dəyişmə hisslərin aldatmasıdır, illuziyadır; hər hansı dəyişməni nə yaratmaq, nə yox etmək mümkündür. Parmenides anti-dialektikdir. Kainat hər zaman var olub, dəyişməz və əbədidir (bu məsələdə o, kainatın zaman içində yarandığı və əbədi olmadığını deyən bütün digər ilk çağ yunan filosoflarından fərqlənir). Ümumiyyətlə, varlıq əbədidir, yaranma və dağılma illuziyalardır.

Parmenides`də 3-cünün istisna olunması prinsipinə/qanununa (yəni A təklifi və qeyri-A təklifindən biri doğrudur; məsələn, "masanın üstündə kitab var" və "masanın üstündə kitab yoxdur" –ikisindən biri doğrudur, 3-cü hal yoxdur) rast gəlinir (ilk dəfə?!). Aristotel "Metafizika"sında bunu açıq dürüst şəkildə ifadə etmişdir. Parmenides "hər yerə varan" efirin adını çəkir (bu anlayışı Aristotel məşhurlaşdıracaqdı). Parmenides Platona təsir etmiş filosoflardandır, "Sofist" dialoqunda "bizim atamız Parmenides" deyilir. "Mən onunla çox gənc yaşımda tanış olmuşdum, o isə çox qoca idi və mənə qeyri-adi dərinliyə malik olan şəxs kimi göründü" (Platon. Teetetus, 183e; Фрагменты, часть 1. «Наука», M., 1989;

стр. 275). Pluralistlərdən Empedokles və Anaksaqoras, həmçinin atomistlərin nəzəriyyələri, müəyyən dərəcədə, Parmenides`ə etiraz sayıla bilər. “Parmenid...məntiqə əsaslanan metafizikanı kəşf edib” (B. Russell). Parmenides`i metafizikanın atası (və ya babası) saymaq mümkündür. Metafizika da riyaziyyat kimi ağlın gimnastikasıdır (və ya dəlidən doğru xəbərdir?!). Metafizikada tam və qəti təkzib etmək, demək olar ki, mümkün olmur.

Parmenidesin tələbəsi Elea`lı Zenon (Zeno; “-5”-ci əsrin birinci yarısı?) görüntünün, hisslərin aldadıcı olduğunu nümayiş etdirmək məqsədi güdən paradoksları (aporie`ləri/çətinlikləri) ilə məşhurdur. Zenon`un bəzi paradoksları, o cümlədən Axilles/Axilleus  və tısbağa hərəkətin mövcudluğunu inkar etməyə yönəlmişdir.Ən iti qaçan yunanlı Axilles çox yavaş yeriyən tısbağa ilə yarışda-qaçışda tısbağanın bir qədər öndə qaçışa başlamasını qəbul etsə, uduzacaq, heç vaxt tısbağaya çata bilməyəcək.

A ----------------------------------------------T-----T′---T″--T‴----

Axilles A, Tısbağa T nöqtəsində qaçışa başlasalar, Axilles T nöqtəsinə çatanda, tısbağa bir T′ nöqtəsində-Axillesdən öndə olacaq. Axilles sürətlə qaçmaqda davam edib T″nöqtəsinə çatanda tısbağa müəyyən məsafə qət edib (nə qədər yavaş getsə də) bir T‴ nöqtəsinə çatacaq, yəni yenə də Axilles`dən öndə olacaq. Bənzər əhvalat T‴ nöqtəsində baş verəcək...Beləliklə, cəldqaçan/itiayaq Axilles heç vaxt astagedən/astagəl tısbağaya çatmayacaq.Dixotomiya paradoksu da bənzər ideya üzərində qurulub. Hərəkət edib müəyyən nöqtəyə varmaq istəyən obyekt mənzilə çatmazdan əvvəl həmin məsafənin yarısını qət etməlidir, yarıya çatmazdan əvvəl onun yarısını, yəni beütün məsafənin 1/4-nü qət etməlidir, sonra uyğun olaraq məsafənin 1/8-ni   qət etməlidir və s. Beləliklə sonlu zamanda tam məsafəni qət etmək istəyən sonsuz sayda kiçik məsafələr qət etməlidir. Hər iki paradokssonlu zaman və məkanın sonsuz alt hissələrə bölünə bilməsi halında hərəkətin mümkünsüzlüyünü deməyə çalışır.

Bu paradokslar sonlu ədədin və ya sonlu məsafənin sonsuz kiçik cəm və ya sonsuz kiçik məsafələrin cəmi kimi göstərilə bilməsi (“yığılan sonsuz sıra”) kimi riyazi fakta bağlıdır (məsələn, 2 = 1 + 1/2 + 1/4 + 1/8 + 1/16 +...). Aristotel Zenon`u dialektikanın banisi sayır. Zenon`un işlətdiyi əksini fərz etməklə

(mənasızlığa/absurda gətirməklə) isbat üsulu çağdaş məntiq və riyaziyyatda ən çox tətbiq olunan üsullardan biridir.

Zenon`un yazdığı dialoqları dialoq şəkilli fəlsəfi yazının ilk nümunələrindən biri (birincisi?) sayırlar.

C. Empedokles

Siciliyalı Empedokles(?”-490”-?”-430) filosof, həmçinin fizik, şair və həkim olub. Əsərlərini şeirlə yazıb. İlk dəfə məhz Empedokles ondan əvvəlki filosof-fiziklərin tək bir kök/arxe-təməl ünsür əvəzinə çoxünsürlü, çoxsaylı arxe fikrini irəli sürdü, dörd təməl ünsürü – su, torpaq, hava və odu “hər şeyin kökü” saydı (Aristotel). Beləliklə, Empedokles Falesin suyu, Anaksimenin havası, Herakleitosun oduna torpağı əlavə etməklə dörd təməl ünsürü meydana çıxardı. Empedokles`in maddələr, fiziki-kimyəvi elementlər nəzəriyyəsi və onun özü tərəfindən bənzətməli izahı çox maraqlıdır: rəssam çeşidli boyaları alır, onları uyğun nisbətlərdə qarışdırıb “bu boyalarla...hər şeyin, misal üçün ağacların, kişilərin, qadınların, quşların, balıqların, hətta uzunömürlü tanrıların rəsmlərini çəkirsə, eyni şəkildə təbiət də dörd ünsürü götürüb onların hər birindən fərqli miqdarda və fərqli nisbətlərdə qarışdırıb mövcud olan hər şeyi meydana gətirir”. Hər şey –insanlar, heyvanlar və bitkilər, allahlar – bu dörd kökdən çıxmışlar. “Artıq Pifaqorun şəxsində rastlaşdığımız filosof, peyğəmbər, elm adamı və şarlatan öz olduqca tam ifadəsini/təcəssümünü Empedokles`də tapmışdır” (B. Russell, səh. 66).

Əbədi var olan bu köklər daimi birləşmədə və ayrılmadadırlar; birləşməni - Sevgi qüvvəsi, ayrılmanı isə İxtilaf/Dəfetmə/Nifrət/Kin (Strife) qüvvəsi həyata keçirir.

Çağdaş fizikada qüvvələr müxtəlif cür adlandırılsalar da, makro (uzaqdan təsirə malik) səviyyədə əsas iki qüvvə növü var: qravitasiya (cazibə/Sevgi!) və elektrik (burada da müəəyən dəfetmə mövcuddur). Çox kiçik radiuslarda, nüvə hadisələrində isə daha iki qüvvə növü mövcuddur: nüvə/güclü qüvvə və zəif qüvvə.

Əvvəl tək qüvvə-Sevgi hakim olub, Sonra Nifrət (İxtilaf, Kin) meydana gəlib. Sevginin gücü çox artanda İxtilaf meydana girir və tərsinə....(Xeyir və Şərin mübarizəsi!). Ağır ünsürlər-torpaq və su mərkəzə yığılıb, yüngül ünsürlər –hava və od/alov isə ətrafa dağılıb. Nəticədə dörd ünsür bir nizam, düzülüş, kürələr

ardıcıllığı əmələ gətiriblər: torpaq, onun ətrafında (və ona bitişik) su, daha sonra hava və od/ataş. Aristotel bunu qismən qəbul etdi, o, Ayaltı aləmin bu cür, Ayüstü aləmin isə çox fərqli bir maddədən-efirdən (aiferos") təşkil olunduğunu irəli sürdü (bir addım geri!?). Empedokles`in gecə və gündüzün bir-birini əvəz etməsi məsələsinə də izahı vardı: Yerin ətrafında bir yarım kürəsi oddan, digər yarımkürəsi bir az od qarışığı olan havadan ibarət kürə dövr edir, gündüz 1-ci, gecə 2-ci yarımkürəni görürük. Kainat sürətlə dövr etdiyi üçün onun mərkəzində dayanan Yer düşmür və hərəkətsiz qalır (ipin ucundakı su dolu qabı sürətlə fırladıqda su tökülmür – mərkəzdənqaçma qüvvəsi!). Kainat (kosmos) yumurtavari şəkildədir. Ay Yerin göy qübbəsindən olan məsafəsinin üçdə birində yerləşib. Kainatdakı dəyişmələr təsadüf və zəruriyyətdən doğur (məqsədyönlü deyil; "bu mənada onun fəlsəfəsi Parmenid, Platon və Aristotelin fəlsəfələrindən daha elmidir". B. Russell, səh. 70).

Empedokles`in digər bir prinsipi isə bənzər olanların birləşməsidir. Məsələn, İxtilaf tərəfindən digər ünsürlərdən ayrılan suyun (torpağın) parçaları təbii yolla öz aralarında birləşirlər (bu, Sevgi deyil, Sevgi fərqli olanları birləşdirir). Bir şeyin öz bənzəri ilə təması insanda həzz hissi, bənzər olmayanla təması isə acı hiss yaradır. "Hər şey düşünür, həzz duyur və acı çəkir". Dünya/Kosmos bir-birinə əks qüvvələr arasında müvazinət/dəngə vəziyyətindədir, "dünyanı idarəedən iki qüvvə"əbədi var olacaqlar. Empedokles sadə təcrübə ilə havanın yer tutduğunu, onun da bir cisim olduğunu göstərmişdi (vedrə kimi qabı üzü aşağı suya salanda su onun içinə həmin an dolmur). İşığın məkan üzrə çox yüksək, amma sonlu sürətlə hərəkət etdiyi fikri də Empedoklesin mühüm ideyalarından biri idi. Empedoklesin varlıq fəlsəfəsi Parmenidis`inkinə yaxındır. Mövcud olan əbədidir, boşluq yoxdur, əvvəl mövcud olmayanın meydana çıxmasını və ya mövcud olanın "yox olabiləcəyini... düşünənlər dəlidirlər" (Saxlanma qanunu! Onlardan bizə məlum olan ilki).

Təşəkkül və dəyişmə var (Parmenidesdən fərqli). Bitkilərin cinsi var. Canlının harada (suda, quruda, havada) yaşaması onun vücudunda hansı ünsürün güclü olmasından asılıdır; bu səbəbdən quşlar havada, balıqlar suda, insanlar torpaq üzərində yaşayır. Empedokles öz Sevgi-İxtilaf nəzəriyyəsini heyvanların əmələ gəlməsi və təşəkkülü məsələsinə tətbiq etmiş, yaşamaq uğrunda mübarizə edə bilənlərin, yəni yaşaya bilənlərin qaldığını və digərlərin (əsasən çox qəribə, fantastik olanların) məhv olduğunu iddia etmişdir (19-cu əsrdə populyarlaşmış ideyanın cücərtiləri!).Təməl maddə və qüvvələrin təsadüfi uzlaşması nəticəsində

orqanizmlər əmələ gəlmişlər (öncə bitkilər, sonra heyvanlar). O, ruhun köçməsinə inanmışdır (bu səbəbdən qurban kəsməni pisləmişdir). Empedokles gözün od (alov) və sudan əmələ gəldiyini deyir (fənər və onun ətrafını saran, onu qoruyan şəffaf hissə kimi göz bəbəyindəki alov onu saran şəffaf sulu hissənin/zərin səthindəki dəliklərdən çıxır və görür; alov hissəsi aydınlığı, sulu hissəsi qaranlığı görür).

Galen Empedokles`in həkim kimi adını hörmətlə çəkir, onu Mağna Graecia tibb məktəbinin banisi sayır, Hippokrates`in də üzvü olduğu Kos tibb məktəbi ilə rəqabətdə olduğunu deyir. Empedokles tək ağız və burundan deyil, dəridən də nəfəs alındığını deyirdi.Nə qədər aldadıcı olsa da, təbiəti hisslərsiz dərk etməyin mümkünsüzlüyünü deyir, hisslərin verdiyi biliyin xüsusi qiymətləndirilməsini həlledici sayırdı. Yazılarında ruhun köçməsi və ət yeməmək kimi Pifaqorçuluq da nümayiş etdirir. Empedokles öz ətrafında tələbələrinin qaynaşdığını qeyd etməyi unutmur, şeirlərinin birində hər yerdə minlərlə insanın onun pişvazına çıxdığını, xəstəlikdən qurtarmaq və ya xilas yolu aramaq üçün ondan imdad dilədiklərini deyir. O, başqa yazılarında da fövqəl xilasedici gücə malik olduğunu irəli sürür, sanki bir ilahi varlıqdır (B.Russell`in ona şarlatan sifəti də əlavə etməsi bu cür fövqəlgüc iddiaları ilə bağlıdır). Empedokles`in tələbələri arasında sofist Qorqias seçilir. Empedokles digər bir çox yunan filosoflarından fərqli olaraq demokratiya tərəfdarı olmuş, bu yolda praktik fəalliyyət də göstərmişdir. Empedokles özündən sonra fikir tarixinə təsir göstərmişdir.